# Rusiya sülhməramlılarına aid avtomobil karvanı aksiya ərazisindən sərbəst keçib




Laçın-Xankəndi yolunda təşkil olunan aksiyanın 122-ci günündə də Rusiya sülhməramlılarına məxsus avtomobillər aksiya ərazisindən maneəsiz keçirlər.

AZƏRTAC xəbər verir ki, bu dəqiqələrdə sülhməramlılara məxsus 1 minik, 25 yük avtomobili Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib. Bu bir daha onu göstərir ki, ərazidə hərəkət sərbəstdir. Qeyd edək ki, Ermənistan mətbuatında yayılan və etirazçıların, guya, Laçın-Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

Azərbaycan.- 2023.- 13 aprel.- S.9.